Rəna Qurbanxan qızı Əsədova 1964-1974-cü illərdə Nizami adına 2 saylı Salyan şəhər orta məktəbində təhsil almışdır. O, 1974- ildən Salyan şəhər Mərkəzi kitabxanasında əmək fəaliyyətinə başlamışdır. Rəna xanım sanki bununla da öz həyatını bu sənətlə bağlamışdı. Bu sənətlə bağlı o, 1978-ci ildə Bakı Dövlət Universitetinin kitabxanaçılıq fakültəsinin qiyabi şöbəsinə daxil olmuş və 1984-cü ildə ali məktəbi bitirmişdir.



*1957-ci ilin ən gözəl çağı - bahar fəsli idi. Sərt-boranlı qış arxada qalmışdı. Mart ayının əvvəlləri idi. Təbiət oyanır və hər yan gül-çiçəyə bürünəcəkdi. Salyanda və uzaq-uzaq ellərdə el sənətinin, söz, saz sənətinin tanınmış ustadı Qurbanxan kişinin ailəsində səkkizinci uşaq - qız uşağı dünyaya göz açmışdı. O, gələcəkdə özünün biliyi, mübarizliyi, zəhmətkeşliyi, insanlara böyük sevgisi, qayğısı və sədaqətliliyi ilə seçiləcək Rəna idi.*

# Kitabxanaya bağlı ömür

R.Əsədova 1983-cü ildən M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasında "Kitabişləmə və kataloqlaşdırma" şöbəsində kitabxanaçı kimi işləməyə başlamışdır. İşdə göstərdiyi əməksevərliyə, fəallığa görə rəhbərlik onun bu əməyini qiymətləndirmiş, pillə-pillə vəzifəsini artırmışdır. Əvvəlcə, böyük kitabxanaçı, bölmə müdiri, baş kitabxanaçı, 1994-cü ildən isə həmin şöbəyə müdir təyin olunmuşdur.

2006-cı ilin fevralından isə yeni yaradılmış "Elektron resursların yaradılması" şöbəsinə müdir təyin olunmuşdur. Bu tamamilə yeni istiqamətli bir şöbədir, xüsusi diqqət və bilik tələb edir. Şöbə Milli Kitabxanada elektron kataloqu yaratmaqla məşğuldur. Rəna xanım həmişə öz üzərində çalışır və istəyir ki, dünya kitabxana və informasiya sahəsində baş verən bütün yeniliklərlə tanış olsun və bunları öz işində tətbiq etsin.

2000-ci ildə kitabxanaçıların təlim və informasiya mərkəzində (İRTSL) "Power Point" proqramı üzrə kursun, 2000-2001-ci illərdə isə ingilis dili kursunun iştirakçısı olmuş, 2000-ci ilin fevralın 25-də Azərbaycan Açıq Cəmiyyət İnstitutunun keçirdiyi "Ümumi biblioqrafiya nəzarəti və UNİMARC" seminarının, 2000-ci il martın 27-31-də Açıq Cəmiyyət İnstitutu və Azərbaycanın keçirdiyi "Biblioqrafik uçot və UNİMARC" adlı Beynəlxalq seminarın, 2002-ci il sentyabrın 9-12-də M.F. Axundov adına Azərbaycan Milli Kitabxanasında Litva kitabxanaçılarının keçirdiyi "Müasir kitabxanaların idarə olunması" adlı Beynəlxalq seminarın iştirakçısı olmuşdur.

2000-ci ildən 2002-ci ilə kimi M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası və kitabxanaçıların təlim və informasiya mərkəzinin (İRTSL) birgə təşkil etdiyi "Müasir kitabxanalar və onların vəzifələri" kursunda "Beynəlxalq standartlar və MARC formatı" üzrə mühazirə oxumuşdur. 2003-cü ilin iyul ayında UNİMARC formatının ingilis dilindən Azərbaycan dilinə tərcüməsi üzrə ekspert-rəyçi olmuşdur. Milli Kitabxana və kitabxanaçıların təlim və informasiya mərkəzinin (İRTSL) birgə təşkil etdiyi seminar-müşavirələrdə rayon və region kitabxanaçılarına "Beynəlxalq standartlar və MARC formatı" üzrə mühazirə oxumuşdur. Bu kurslar 2003-2004-cü illərdə Açıq Cəmiyyət İnstitutu Soros xəttilə M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının tədris mərkəzində davam etdirilmişdir. Rəna xanım bu seminar-müşavirələrdə də öz mühazirələrini Respublikanın rayon və region kitabxanaçılarına oxumuşdur.

Rəna Əsədova xanım ziyalı ailənin xanımıdır. Həyat yoldaşı Arif müəllim elmlər namizədidir. O, Azərbaycan Dillər Universitetinin baş müəllimidir. Oğlu Həmid isə həkim-oftalmoloqdur.

Bu günlərdə ömrünün 50-ci baharına qədəm qoyacaq Rəna xanımı biz də təbrik edirik. Ona Tanrıdan uzun ömür, cansağlığı və işində yeni-yeni uğurlar arzulayırıq.

**Bəybala ƏLƏSGƏROV,**
**M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının bölmə müdiri**